# Sertifikatlaşdırma: davamlı inkişaf

## Prosesə start verilib



İyunun 18-dən etibarən dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsinə başlanılıb. Sertifikatlaşdırmada kimya, biologiya, fizika, coğrafiya, informatika, ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, eləcə də xarici dil (ingilis, rus, fransız, alman və digər dillər) fənlərini tədris edən müəllimlər iştirak edirlər.

İmtahanlar ilk gündə ölkə üzrə 18 şəhər və rayonu əhatə edən 39 mərkəzdə təşkil olunub. Prosesin ilk günü 2019 müəllim test mərhələsinə qatılıb və 95% davamiyyət qeydə alınıb. İkinci gün 4228 nəfər iştirak edib və davamiyyət 98% olub. Üçüncü gün keçirilən təkrar sertifikasiya isə 18 şəhər üzrə 39 imtahan mərkəzini əhatə edib. İmtahanda 3300 müəllim iştirak edib, 90% davamiyyət qeydə alınıb.

Sertifikasiyada 3 gün ərzində ümumilikdə 9547 müəllim iştirak edib.

Qeyd edək ki, test imtahanlarında müəllimlərə 120 dəqiqə ərzində 60 test tapşırığı təqdim olunur. Suallar müəllimlərin tədris etdiyi fənn üzrə ümumtəhsil proqramları, tədris metodikası və təlim strategiyalarına əsaslanır. Hər düzgün cavab 1 balla qiymətləndirilir və nəticələr avtomatlaşdırılmış sistem vasitəsilə dərhal monitorda əks olunur.

Test mərhələsində minimum 30 bal toplayan müəllimlər növbəti - müsahibə mərhələsinə keçmək hüququ qazanacaqlar. Qeyd edək ki, Nazirlər Kabinetinin 18 avqust 2022-ci il tarixli qərarına əsasən, sertifikatlaşdırma nəticələrinə uyğun olaraq təhsilverənlərin vəzifə maaşlarına əlavələr ediləcək.

Hər bir imtahan günü bitdikdən dərhal sonra apellyasiya müraciətlərinin qəbuluna başlanılır. 18 iyun tarixli imtahan üzrə müraciətlər 19 iyun saat 12:00-dan, 19 iyun imtahanı üzrə 20 iyun saat 12:00-dan və 20 iyun imtahanı üzrə müraciətlər isə saat 19:00-dan etibarən *portal.edu.az* platformasının "Sertifikatlaşdırma" bölməsi vasitəsilə qəbul edilir. Müraciətlərin qəbulu müvafiq olaraq 19 və 20 iyul tarixlərinə qədər davam edəcək. Apellyasiya prosesindən sonra yekun nəticələr açıqlanacaq. Müraciətlər 72 saat (3 gün) ərzində qəbul olunacaq.

Qeyd edək ki, prosesin şəffaflığını və obyektivliyini təmin etmək məqsədilə imtahanlar texniki imkanlarla təchiz olunmuş mərkəzləşdirilmiş nəzarət sistemi vasitəsilə monitorinq olunur.